Lev Tolstoy

# BALACA FİLİP

HEKAYƏLƏR

Лев Толстой

# ФИЛИПОК

РАССКАЗЫ

*Bu kitaba böyük rus yazıçısı Lev Tolstoyun təbiət, heyvanlar, quşlar haqqında yazdığı hekayələr daxil edilib.*

**Лев Толстой ФИЛИПОК.** Рассказы
**Lev Tolstoy BALACA FİLİP.** Hekayələr
Bakı, Qanun Nəşriyyatı, 2021, 48 səh.
Çapa imzalandı: 02.06.2021

Redaktor: Əyyar Tahir
Texniki redaktor: Tural Zeynallı
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0502

© Gənclik, 1985
© Qanun Nəşriyyatı, 2021

# BALACA FİLİP

Filip adlı bir oğlan var idi. Uşaqların hamısı məktəbə gedirdi. Filip də papağını götürdü, getmək istədi. Anası dedi:



– Hara belə?

– Məktəbə.

– Sən hələ balacasan, getmə, – anası onu evdə saxladı. Uşaqlar məktəbə getdilər. Filipin atası səhərdən meşəyə, anası günəmuzd işə getdi. Daxmada balaca Filip və kərpic sobanın üstə uzanmış nənəsi qaldı.



Balaca Filip təklikdən darıxdı. Nənəsi yatandan sonra o, papağını axtarmağa başladı, tapmadı, atasının köhnə papağını götürüb məktəbə yollandı. Məktəb kənddən bir az aralı, kilsəyə yaxındı. Balaca Filip məhəllələrindən keçəndə itlər ona dəymədilər, onu tanıdılar. Ancaq özgə həyətlərin yanından ötəndə Juçka





sıçrayıb hürməyə başladı. Juçkanın ardınca da böyük Volçok çıxdı. Balaca Filip qaçmağa başladı, itlər də ardınca düşdü.

Balaca Filip çığırdı, büdrəyib yıxıldı. Bir kişi küçəyə çıxdı. İtləri qovub dedi:

– Ay dəcəl, tək hara qaçırsan?





Balaca Filip heç nə deməyib ətəklərini yığdı, daha bərk qaçmağa başladı. Gəlib məktəbə çatdı. Artırmada heç kəs yox idi, lakin içəridən uşaqların səsi gəlirdi.





Balaca Filipin ürəyinə qorxu düşdü: "Birdən müəllim məni qovsa, nə edərəm?" – onu fikir aldı.

Geriyə qayıtsa, yenə itlər üstünə düşər, içəri girməyə isə müəllimdən qorxur.

Məktəbin yanından əlində vedrə tutmuş bir arvad keçirdi, dedi:

– Hamı dərsdədir, bəs sən niyə burda durmusan?

Balaca Filip içəri keçdi.

Dəhlizdə papağını çıxardıb qapını açdı. İçəri uşaqla dolu idi. Şagirdlər çığırışır, qırmızı şərfli müəllim otağın ortasında gəzirdi.

– Sən hardan gəlib çıxdın? – deyə o, Filipin üstünə çığırdı.

Balaca Filip papağından bərk-bərk yapışıb heç nə demədi.

– Sən kimsən axı?



Balaca Filip susurdu.
– Bəlkə lalsan?

